**Mühasibat** iqtisadi və maliyyə təhlillərin öyrənilməsinə yönəlmiş çoxsahəli tədris proqramıdır. Mühasibat müəssisənin, idarənin, təşkilatın və başqa təsərrüfat subyektlərinin əmlakının, öhdəliklərinin, kapitalının, dövriyyə vəsaitlərinin və ümumiyyətlə, bütün maliyyə-təsərrüfat fəaliyyətinin, təsərrüfat əməliyyatlarının mühasibat hesablarında ikili yazılış üsulu ilə yığılması və qaydaya salınması sistemini özündə əks etdirir. Statistika, iqtisadiyyat, maliyyə, riyaziyyat kimi əsas fənlərin tədrisi ilə yanaşı, tələbələr statistik informasiyanın elektron təhlilinin müasir metodlarını öyrənirlər ki, bu da əldə etdikləri nəzəri bilikləri praktikada tətbiq etmək imkanı yaradır.

Proqramı müvəffəqiyyətlə başa çatdıran məzunlar iqtisadi fəaliyyətlə bağlı dövlət strukturları, büdcə və qeyri hökumət təşkilatlarında, nazirlik və komitələrdə, biznes və sahibkarlıq fəaliyyəti ilə məşğul olan təsərrüfat subyektlərində, firma, müəssisə və şirkətlərin müvafiq struktur bölmələrində, beynəlxalq biznes, maliyyə, turizm və digər xidmətlər üzrə fəaliyyət göstərən şirkətlərdə fəaliyyət göstərə bilərlər.